

# Qanunsuz sahibkarlıq cinayətinin obyektiv cəhətinin xüsusiyyətləri

**Vüqar TALIBOV**
*Vergi Cinayətlərinini İbtidai Araşdırılması Departamentinin əməliyyat müvəkkili, 3-cü dərəcəli hüquqşünas*

*Cinayət hüququ elmində cinayətin digər tərkib hissələri kimi obyektiv cəhətin də özünəməxsus spesifik xüsusiyyətləri vardır. Cinayətin obyektiv cəhəti ilə bağlı bir sıra hüquq ədəbiyyaylarında müxtəlif yanaşmalar vardır. F.Səməndərov Cinayət hüququ dərsliyində cinayətin obyektiv cəhətini aşağıdakı kimi qeyd edir: "Cinayətin obyektiv cəhəti - müəyyən zamanda və məkanda, müəyyən şəraitdə baş verən, mövcud ictimai münasibətlərə ziyan vuran ictimai-təhlükəli qəsdin zahiri cəhətidir"[1].*

Bundan başqa, Moskva Dövlət Universitetinin hüquq fakültəsi tərəfindən buraxılmış "Cinayət hüququ kursu" dərsliyində isə cinayətin obyektiv cəhətinin anlayışı verilərkən ictimai münasibətlərə ziyan vuran ictimai-təhlükəli qəsdin zahiri cəhəti ilə yanaşı əsas kimi nəticə və səbəbli əlaqəni də qeyd edirlər [1].

Yuxarıda qeyd olunmuş fikirlərdən istifadə edərək cinayətin obyektiv cəhətinin anlayışı verməyə çalışaq. Cinayətin obyektiv cəhəti subyektin cinayət qanunu ilə qorunan ictimai münasibətlərə ziyan vuran ictimai-təhlükəli əməlini xarakterizə edir. Cinayətin subyektiv cəhətində şəxsin ictimai-təhlükəli əməlinə psixi münasibəti əsas götürülürsə, cinayətin obyektiv cəhətində daxili mahiyyət deyil, zahiri tərəf götürülür. Cinayət hüququ elmində cinayətin obyektiv cəhətinin tərkib hissəsini təşkil edən bir sıra elementlər mövcuddur. İctimai-təhlükəli əməl (hərəkət və hərəkətsizlik), ictimai təhlükəli nəticə, səbəbli əlaqə, əməlin (hərəkət və hərəkətsizliyin) törədildiyi üsul, zaman, məkan, şərait, əməlin (hərəkət və hərəkətsizliyin) törədilməsində istifadə edilən alət və vasitələr bu qəbildən olan elementlərdir.

Cinayətin obyektiv cəhəti Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (AR CM) Xüsusi hissəsində ayrı-ayrı növdən olan cinayətlər üzrə də araşdırılır.

Araşdıracağımız mövzu AR CM-nin 192-ci maddəsində qeyd olunmuş qanunsuz sahibkarlıq cinayəti ilə bağlı olduğundan həmin cinayətin obyektiv cəhətini nəzərdən keçirək.

İlk növbədə onu qeyd etmək lazımdır ki, bu maddə 1960-cı il Azərbaycan SSR-nin CM-nin analoji maddəsi (maddə 150-2) ilə müqayisədə daha zəngindir və onun dispozisiyasına bəzi yeni əlamətlər daxil edilmişdir (lisenziyalaşdırılma şərtlərinin pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə həyata keçirilən sahibkarlıq fəaliyyəti).



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

Qanunsuz sahibkarlıq cinayətinin (AR CM, maddə 192) dispozisiyasını nəzərdən keçirək: “Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan və ya xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) almadan, həmçinin lisenziyalaşdırılma şərtlərinin pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olma vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurduqda habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə” [2].

Qanunsuz sahibkarlıq cinayəti obyektiv cəhətdən maddi tərkibli cinayət hesab olunur. Ona görə ki, maddənin dispozisiyasında cinayətin bitmiş cinayət hesab olunması üçün mütləq xeyli miqdarda ziyan vurması və ya xeyli miqdarda gəlir götürməsi tələb olunur. Qeyd olunan cinayətin obyektiv cəhəti özlüyündə iki qrupa bölünür. Birinci qrupa dövlət qeydiyyatına alınmadan və ya xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) almadan, həmçinin lisenziyalaşdırılma şərtlərinin pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə həyata keçirilən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğulolma aiddir. Obyektiv cəhətin bu qrupunda qanunsuz sahibkarlıq fəaliyyəti yaradan əməllər öz-özlüyündə hərəkət və hərəkətsizliklə ifadə olunur.

Bu qrupu araşdırarkən sahibkarlıq fəaliyyətinin anlayışını vermək daha məqsədəuyğun olardı. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsində sahibkarlıq fəaliyyətinin anlayışı belə verilmişdir: “Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətdir” [1]. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 13-cü maddəsində də sahibkarlıq fəaliyyətinə anlayış verilmişdir və o da yuxarıda göstərilən anlayışla eynilik təşkil edir.

Qanunsuz sahibkarlıq cinayətinin obyektiv cəhətinin birinci qrupuna daxil olan kriminal əməl Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan ibarət olan hərəkətsizlikdir. Bu hərəkətsizlik o halda baş verir ki, şəxs normativ aktlarla müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmaq üçün müəyyən orqana müraciət etməli olduğu halda bunu etmir. Fərdi sahibkarların dövlət qeydiyyatı “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsinin 2-ci bəndində göstərilmişdir. Fərdi sahibkarlar yaşadıqları və fəaliyyət göstərdikləri yer üzrə vergi orqanları tərəfindən qeydiyyata alınırlar. Vergi Məcəlləsinin 33.4-cü maddəsində göstərilir ki, fərdi sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs ərizəni, sahibkarlıq fəaliyyətinə başladığı günədək vergi orqanına verməlidir [3]. “Sahibkarliq fəaliyyəti subyektlərinin fəaliyyətinin bir pəncərə prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezi-dentinin 25 oktyabr 2007-ci il tarixli, 2458 saylı sərəncamı ilə sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin bir pəncərə prinsipi üzrə vahid dövlət qeydiyyatı Azərbaycan Respublikasının Vergilər Nazirliyinə həvalə edilmişdir [6].

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 48-ci maddəsində hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında ümumi müddəalar qeyd olunmuşdur. 48.1-ci maddə göstərilir ki, hüquqi şəxs müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınmalıdır. Dövlət qeydiyyatının məlumatları, o cümlədən kommersiya təşkilatları üçün firma adı ümumi tanışlıq üçün açıq olan hüquqi şəxslərin dövlət reyestrinə daxil edilir. Hüquqi şəxslərin dövlət qeydiyyatının qaydaları "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur. Qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir. Dini qurumların dövlət qeydiyyatı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən aparılır.

Xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) almadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğulolma hərəkətsizlikə ifadə olunur. Lisenziyanın dəyişdirilməsi və müddətinin uzadılmaması halları da xüsusi razılıq (lisenziya) almamaq kimi qiymətləndirilir. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 11-ci maddəsində bəzi fəaliyyət sahələrinin lisenziyalaşdırılmasının ümumi əsasları müəyyən edilmişdir: "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2002-ci il tarixli, 782 saylı fərmanı bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında qaydaları, 55 bənddə göstərilmiş 240 adda fəaliyyət növünün lisenziyalaşdırılmasını, xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərini və həmin fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğlərini müəyyən edir [6].

Lisenziyalaşdırılma şərtlərinin pozulması ilə qanunsuz sahibkarlıq fəaliyyətini həyata keçirmə cinayətin obyektiv cəhətinə aid edilir. Lisenziyalaşdırılma şərtlərinin pozulması dedikdə, lisenziyada nəzərdə tutulmayan fəaliyyətlə məşğul olma, lisenziyada qeyd olunan miqdardan və həcmdən artıq məhsul istehsal etmə, işlər görmə, xidmət göstərmə və s. başa düşülür. Göstərilən hərəkətlər o halda cinayət tərkibi yarada bilər ki, onlar lisenziyada göstərilmiş olsun. Lisenziyada göstərilməyən şərtlərin pozulması cinayət əməli kimi qiymətləndirilə bilməz.

Xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə həyata keçirilən qanunsuz sahibkarlıq fəaliyyəti qanunvericilikdə müəyyən olunan, mülki dövriyyəsi məhdudlaşdırılan əşyalardan istifadə etməklə işlərin görülməsi, əmlak istifadəsi, əmtəə satışından mənfəət götürməklə xüsusi icazə almadan həyata keçirilən fəaliyyət kimi başa düşülməlidir. Mülki dövriyyəsi məhdudlaşdırılan əşyaların siyahısı "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli Qanunu ilə müəyyənləşdirilir. Həmin əşyalara hərbi silah və sursat istehsal etmək üçün avadanlıq, döyüş təyinatlı hərbi texnikanı istehsal etmək üçün avadanlıq, xidməti və mülki silah istehsal etmək üçün

avadanlıq, qiymətli kağız çap etmək üçün avadanlıq və s. aiddir [7].

Qanunsuz sahibkarlıq cinayətinin obyektiv cəhətinin ikinci qrupuna isə vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurma, habelə xeyli miqdarda gəlir əldə etmə, əməllə vurulmuş ziyan arasında səbəbli əlaqə daxildir. Vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurma, habelə xeyli miqdarda gəlir əldə etmə dedikdə, Cinayət Məcəlləsinin 190-cı maddəsinin qeyd hissəsində göstərilmiş 1000 manatdan 7000 manatadək olan məbləğ başa düşülür [2].

Qeyd etdiyimiz məbləğ miqdarında gəlir əldə edildikdə və yaxud ziyan vurulduqda cinayət bitmiş hesab olunur. Burada vurulmuş ziyan dedikdə vətəndaşlara, təşkilatlara və ya dövlətə dəymiş əmlak itkisi, əldən çıxmış mənfəət və s. başa düşülməlidir. Vurulmuş ziyanla ictimai-təhlükəli əməl arasında səbəbli əlaqə müəyyən edilməlidir. Əgər səbəbli əlaqə müəyyən deyildirsə, yəni subyektin ictimai-təhlükəli əməli ilə ziyan vurulmamışdırsa cinayət məsuliyyətindən söhbət gedə bilməz.

*В.Талыбов*

**Особенности объективных сторон преступлений незаконного предпринимательства**

***РЕЗЮМЕ***

Основную часть этой статьи составляют разбирательство общественно-опасных деяний, которые составляют объективную часть преступления незаконного предпринимательства применением метода сравнительного исследования, дача их ссылающиеся на законодательные акты понятия. В статье отдано особое значение каждой стороне при разбирательстве общественно-опасных деяний, составляющих объективную часть преступления незаконного предпринимательства.

*V. Talibov*

*Characteristics of objective aspect of illegal entrepreneurship crime*

***RESUME***

Study of the public dangerous crimes that are objective aspect of the illegal entrepreneurship crime by using comparative research method and providing their definitions referred to the legislative acts are the main part of the present Article. In the Article, each side is emphasized when studying public-dangerous actions that are the objective aspect of the illegal entrepreneurship crime.

*Ədəbiyyat*

1. Səməndərov F.U. Cinayət hüququ .Ümumi hissə. Bakı, "Digesta", 2007, 700 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, Hüquq ədəbiyyatı, 2009, 419 s.
3. Azərbaycan Respublikası Vergi Məcəlləsi, Bakı, CBS PP, 2010.
4. "Sahibkarlıq fəaliyyəti haqqında AR Qanunu," 15 dekabr 1992-ci il. http://www.anfes.gov.az/qanun/files/SahibkFhtml.html
5. "Sahibkarliq fəaliyyəti subyektlərinin fəaliyyətinin bir pəncərə prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 oktyabr 2007-ci il tarixli, 2458 saylı Sərəncamı. http://www.azerbaijan-news.az/index.php?Lng=aze&year=2007&Pid=18125
6. "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli Qanunu. http://e-qanun.az/files/framework/data/4/c_f_4791.htm
7. "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2002-ci il tarixli, 782 saylı Fərmanı. http://www.azerbaijanleasing.com/docs/September-2-2002.doc